1883-cü ildə Rotşildin nümayəndəsi Parisdən Bakıya gəlib "Xəzər-Qara dəniz" səhmdarlar şirkətini yaradır, tez bir zamanda rus neft sənayeçisi Peşkovskinin mə`dən, zavod və digər müəssisələrini ələ keçirir. Rotşild eyni zamanda "Mazut" ticarət komissiyası yaratmışdı. Ona borclu olan zavod sahibləri ağ nefti yalnız "Mazut"a təhvil verməli idilər. Bir çoxları bu komissiyanın "fəaliyyətindən" iflas olmuşdu.

1890-cı ildə ingilis Ceyms Vişau Bibiheybətdə neft mə`dənləri və Qaraşəhərdə "Şibayev şirkəti"nin zavodlarını alır. Belçika, Almaniya və Amerika Birləşmiş Ştatlarının nümayəndələri də Bakıda şirkətlər, maliyyə-kredit, ticarət müəssisələri yaradırlar.

Bakı mə`dənlərində gözlənilmədən elə fontanlar olurdu ki, gündə min tonlarla neft çıxırdı. Heç yerdə və heç kəsin tanımadığı adi bir adam birdən-birə milyonçuya çevrilirdi. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuz Muxtarov, Seyid Mirbabayev, Montaşov, Mirzəyev, Şibayev, Leonozov və başqaları belə varlananlardan idilər. Elə ki, fontan vururdu, qonşuluqdakı torpağın qiyməti birə-min artırdı. Neftin bütün üstünlüklərini və gələcəkdəki əhəmiyyətini yaxşı bilən dünyanın böyük dövlətlərinin uzaqgörən siyasətçiləri bu misilsiz yanacağa yiyələnmək üçün planetin bütün guşələrində olan neft yataqlarını ələ keçirməyə can atırdılar. Amerikalı Con Rokfellerin "Standart oyl", İngiltərədən Henri Deterdinqin rəhbərliyi

altındakı "Royal Döyçe Şell", fransızlardan Rotşildin "Xəzər—Qara dəniz" və "Mazut", isveçli "Nobel qardaşları"nın sindikatları Bakıya can atırdı. Beləliklə, neft sənayesi hesabına gündən-günə inkişaf edən Bakı dünya şəhərinə çevrilirdi.

Azərbaycan neftinin tarixindən söhbət açan zati-aliləri Heydər Əliyev onun inkişafını mərhələlərə də bölmüşdür. Heydər Əliyev göstərir ki, "Azərbaycanın neft sənayesinin qədim və zəngin tarixi var. Azərbaycan qədim Odlar diyarıdır. 1848-ci ildə dünyada ilk dəfə məhz Azərbaycan torpağında neft fontan vurub və dünyada neftin sənaye üsulu ilə hasilatına başlanıbdır. XX əsrin əvvəllərində Azərbaycan neftçiləri qurudan dənizə doğru irəliləyiblər və Xəzərin sahillərində neft quyuları qazıb dənizin dibindən də neft çıxarmaqla məşğul olublar. 1922-ci ildə məhz burada, bu sahədə mühəndis, polyak vətəndaşı Pototskinin təklifləri əsasında suda, dənizdə quyular qazılmağa və dənizin dibindən neft çıxarılmağa başlanıbdır".

Əsrimizin 40-cı illərində isə Azərbaycan neftçiləri dünya miqyasında böyük nailiyyət əldə etmişlər. Məşhur Neft daşlarında ilk dəfə quyu qazıb, Xəzər dənizinin, demək olar, ortasında olan sahədə neft fontanı almağa nail olmuşlar. Bu hadisə 1949-cu ilin noyabr ayında baş vermişdir. Sonrakı illərdə əfsanəvi Neft daşlarında dənizin dibindən neft hasilatı genişlənib və Azərbaycan yenə də dünyada dənizdən neft çıxarılmasının bünövrəsini, əsasını qoymuşdur.



Beləliklə, Azərbaycanda neft sənayesinin inkişafını **üç mərhələyə** bölmək olar: XIX əsrin ikinci yarısından, ortasından təxminən XX əsrin 20-ci ilinə qədər — bu, **birinci mərhələdir**. 1920-ci ildən Azərbaycan öz dövlət müstəqilliyini əldə edənə qədərki dövr neft sənayesinin **ikinci mərhələsidir**. Nəhayət, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ötən illər Azərbaycan neft sənayesinin **üçüncü mərhələsidir**. Hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri və parlaq tarixi var.

Biz birinci mərhələdə Azərbaycan neft sənayesinin təşəkkülü və inkişafı barədə qısaca da olsa söhbət açdıq. Əsas mövzuya keçməzdən əvvəl sovet dövründə Azərbaycan neft sənayesindəki durum barədə bir neçə kəlmə söyləmək istərdik.

## DAHİYANƏ UZAQGÖRƏNLİYİN DÖVRÜMÜZƏ ÇATAN BƏHRƏSİ

***"Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər. Bu işlərdən biri də neft sənayesinin texniki, istehsal bazasının, infrastrukturunun yaranması olmuşdur".***

**Heydər ƏLİYEV**

XIX əsrin sonunda Azərbaycan neft hasilatına görə ABŞ-ı ötüb keçmiş, 1898-ci ildən dünyada birinci yerə çıxmışdı. 1901-ci ildə Rusiyada ən çox — 11,9 milyon ton neft hasil edilmişdi.

1913-cü ildə isə vəziyyət tamamilə dəyişdi. Yüksək mənfəət götürmək ehtirası və buna görə neft yataqlarının vəhşicəsinə istismarı nəticəsində Rusiyada neft hasilatı 10,3 milyon tona, o cümlədən Azərbaycanda 7,7 milyon tona endi. Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə və vətəndaş müharibəsi illərində neft çıxarılması Rusiyada 3,8 milyon tona, Azərbaycanda isə 2,9 milyon tona qədər azaldı. Sovet hakimiyyətinin qurulması ərəfəsində neft sənayesində acınacaqlı vəziyyət yaranmışdı. Minlərlə istismar quyusu dayanmış, bir çox sahələrdə neftli horizontları su basmışdı. Qazma işləri demək olar ki, aparılmırdı. Erməni daşnaklarının əli ilə Bakıda



törədilən mart qırğını, şəhərin dəfələrlə əldən-ələ keçməsi qeyri-sabitlik doğurmuşdu. Yollar kəsildiyindən nefti başqa yerlərə daşımaq xeyli çətinləşmişdi. Neft mə`dənləri bərbad hala düşmüşdü. Yoluxucu xəstəliklər tüğyan edir, içməli su tapılmırdı. Mə`dənlərdəki neftlə dolu çalalardan, ambarlardan aşıb-daşan neft havanı daha da ağırlaşdırır, yanğın təhlükəsi törədirdi. Sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan Rusiyaya ilk neft "hədiyyəsini" verdi. Rezervuar və ambarlarda olan 5 milyon ton xam neft 1920-ci ilin 29 aprelindən iyunun ortalarına qədər, qırx gün ərzində dəniz və dəmir yolu ilə Rusiyaya daşındı. Rusiyanın dağılıb bərbad olmuş sənayesi, nəqliyyatı və kənd təsərrüfatı tədricən dirçəlməyə başladı. Bu qədər neftin sür`ətlə daşınmasını təşkil etdiyinə görə "Azneft"in rəisi Aleksandr Serebrovski "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif edildi.

24 may 1920-ci ildə Azərbaycan İnqilab Komitəsi neft sənayesinin milliləşdirilməsi barədə dekret imzalamışdır. Milliləşdirilmiş neft sənayesini idarə etmək məqsədilə Azərbaycan Neft Komitəsi ("Azərneftkom") təşkil olunmuşdu. Bundan sonra Azərbaycan neft sənayesində "sovet quruculuq planları"nın həyata keçirilməsinə başlanılmışdır. 1922-ci ilin yanvarında Sabunçuda ilk sovet neft quyusu qazıldı. Həmin ildə Bibiheybət buxtasında, Xəzər dənizində yaradılan sün`i adacıqda ilk dəniz neft quyusu qazıldı. Beləliklə, 18 aprel 1923-cü ildə altı quyudan fontan vurmaqla neftlə zəngin "İliç buxtası" kəşf edildi. Azərbaycan neft

sənayesi mütəxəssislərinin təklif etdikləri yeni qazma üsulları, neft-maşınqayırma mütəxəssislərinin hazırladıqları yeni texnika mə`dənlərdə tətbiq edildi. Azərbaycan neft sənayesi günü-gündən dirçəlirdi. 1927-28-ci illərdə respublikada neft hasilatı 1913-cü il səviyyəsini ötüb keçdi. 1940-cı ildə Azərbaycan neft sənayesi keçmiş SSRİ məkanında hasil olunan neftin dörddə üçünü verirdi. Böyük Vətən müharibəsi illərində cəbhəni yanacaqla tə`min etmək vəzifəsi Azərbaycan neftçilərinin üzərinə düşmüşdü. Ölkə neftçilərinin fədakarlığı sayəsində təkcə 1941-ci ildə 23 milyon 541 min ton neft çıxarıldı.

Azərbaycan alimləri və mühəndis-texnik işçiləri yüksək oktanlı benzin alınması texnologiyasını işləyib hazırladılar. Müharibə dövründə — 1941-1945-ci illərdə Azərbaycan ittifaq fonduna 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdir.

Müharibədən sonra Azərbaycan neft sənayesi yeni dövrə qədəm qoymuşdur. 1948-ci ildən Xəzərdə neft çıxarılmasına başlanmışdı. 1949-cu ilin sonlarında SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfi və istifadəyə verilməsi işini yaxşılaşdırmağa dair tədbirlər haqqında" qərar qəbul etdi. "Azərdənizneft" tresti yaradıldı. Sonrakı illərdə Abşeron arxipelaqında yeni məhsuldar neft sahələri, Əli Bayramlı şəhəri yaxınlığında yeni neft yataqları istifadəyə verildi. 1971-ci ildə Azərbaycanda I milyardıncı ton neft çıxarıldı. Azərbaycan neft elminin mərkəzi sayılır, Bakı isə neft akademiyası adlandırılırdı. Neft yataqlarının kəşfiyyatı,



qazılması və işlənilməsi, mütərəqqi texnikanın və texnoloji üsulların tətbiqinə dair bir çox yeniliklər ilk dəfə Azərbaycanda həyata keçirilmişdir. Ölkədə neft sənayesinin bir sıra elmi-tədqiqat institutları, istehsal birlikləri, neft-maşınqayırma müəssisələri fəaliyyət göstərirdi. Lakin Azərbaycan neft sənayesinin daim yüksələn xətlə inkişaf etdiyini düşünmək yanlış olardı.

1960-cı illərdə neft-qaz sənayesinin səmərəliliyi və inkişaf sür`əti aşağı düşmüşdü. Həmin dövrdə neftin ümumi hasilatı 1,3 milyon ton, qaz hasilatı isə 659 milyon kubmetr azalmışdı. Belə bir gərgin vaxtda Heydər Əliyev Azərbaycana rəhbər tə`yin edildi. Özünəməxsus enerji, qətiyyət və təşkilatçılıq bacarığı ilə Heydər Əliyev respublikanın xalq təsərrüfatını, o cümlədən neft-qaz sənayesini yenidən qurmağa başladı. Onun gərgin səy`i nəticəsində bir ildən sonra "Azneft" üzrə neft hasilatının azalma sür`əti 7,2 faizdən 4,3 faizə endi. Neft sənayesində geoloji-kəşfiyyat işlərinin səmərəliliyi xeyli artdı. 8 yeni yataq kəşf edildi. Neftin sənaye ehtiyatları artımı üç dəfə, qazın sənaye ehtiyatları artımı iki dəfə çoxaldı.

Yetmişinci illərin əvvəllərində Azərbaycan neft sənayesinin inkişafında yeni dövr başlandı. Heydər Əliyevin yeritdiyi uzaqgörən və müdrik iqtisadi siyasət nəticəsində Bakıda çox iri neftayırma kompleksi yaradılmasının əsası qoyuldu. Onun şəxsi təşəbbüsü və nüfuzu sayəsində Bakıdakı neftayırma zavodlarının yenidən qurulmasına başlandı. 1976-cı ildə "Azərneftyanacaq" İB-də, 1982-ci ildə "Azərneftyağ" İB-də neftin ilkin e`malı qurğularından ibarət "ELOU-AVT"

kompleksi istifadəyə verildi. Hələ 70-ci illərin başlanğıcında ittifaq rəhbərliyinin diqqətini Azərbaycandakı neft sənayesinin gələcək inkişafında mühüm yer tuta biləcək neft e`malına yönəldən Heydər Əliyev "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planının SSRİ rəhbərliyi tərəfindən təsdiqinə nail olmuşdu. Respublikada 1976-cı ildə "ELOU-AVT-6", 1980-ci ildə "Katalitik Riforminq", 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik Krekinq" qurğularının tikilməsi məhz həmin planın və Heydər Əliyev uzaqgörənliyinin nəticəsidir. O vaxt görülən işlər müstləqil Azərbaycanda dünya standartlarına uyğun neftayırma sənayesinin formalaşmasına imkan yaratmışdır. Heydər Əliyevin göstərişi ilə 70-80-ci illərdə Azərbaycanda iri gəmilərdən, təchizat gəmilərindən, borudüzənlərdən, xüsusi seysmik tədqiqat və axtarış gəmilərindən ibarət güclü dəniz neft donanması yaradılmışdır. Bir sıra üzən qazma qurğularının, yarımdalma qazma qurğularının və özüqalxan qazma qurğularının yaradılmasında zati-aliləri Heydər Əliyevin böyük zəhməti və xidməti vardır. O, neftçilərə daim qayğı göstərmiş, gərgin əməklərini yüksək qiymətləndirmişdir. H.Əliyevin təklif və təqdimatı əsasında üç nəfər "Sosialist Əməyi Qəhrəmanı", 22 nəfər əməkdar səmərələşdirici, inşaatçı, geoloq və neft ustası fəxri adına layiq görülmüşdür.

Heydər Əliyev SSRİ rəhbərliyində işləmək üçün Moskvaya getdikdən sonra Azərbaycan neft sənayesində də bir geriləmə və tənəzzül müşahidə olunmağa başlanmışdır. Doğrudur, 1985-ci ildə yüksək neft-qaz



potensialına malik "Çıraq" yatağı, 1987-ci ildə isə "Çıraq"dan Cənub-qərbdə, Abşeron-Balaxanı qalxım sahəsinin davamında yüksək neft-qaz ehtiyatına malik daha bir yataq - "Azəri" neft-qaz yatağı kəşf edilmişdi. Lakin bu yataqların mənimsənilməsi respublikamız qarşısında böyük problemlər yaratdı. Çünki yataqların kəşfi dövrü sovet hakimiyyətinin dağılması, Azərbaycanın müstəqillik yoluna qədəm qoyması ilə eyni vaxta düşmüşdü. Bu dövrdə neft sənayesinin, eləcə də Azərbaycanın bu yataqların işlənməsi üçün lazımi səviyyədə iqtisadi və texniki imkanları yox idi. İki yol qalırdı: ya yataqların mənimsənilməsindən ötrü vəsait və texniki imkanların yaranması üçün 10-15 il gözləməli, ya da xarici şirkətlərin gücü ilə iş aparılmalıydı. Ən doğru varinat vaxt itirmədən işə başlamaq idi. İlk dəfə hələ 1989-cu ildə "Azəri" yatağında xarici şirkətlərlə birgə işləmək barəsində təklif irəli sürüldü və tender e`lan olundu. Tenderin şərtləri dünyanın 16 böyük neft şirkətinə göndərildi. Bunlardan ancaq 6 şirkət tenderdə iştirak etdi. 1992-ci ildə bu yatağa "Çıraq", daha sonra "Günəşli"nin dərin hissəsi də əlavə olundu. Müqavilə ilə bağlı illər boyu danışıqlar getməsinə baxmayaraq konkret nəticə yox idi. Onun reallaşması istiqamətində əsas iş yalnız 1993-cü ildən - zati-aliləri Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra görüldü. Onun başçılığı və bilavasitə gərgin zəhməti və diplomatik sə`yləri nəticəsində 20 sentyabr 1994-cü ildə "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərin hissəsinin işlənməsini nəzərdə tutan "Əsrin

müqaviləsi" imzalandı və konkret əməli işlər görülməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı.

"Əsrin müqaviləsi"nin bağlanmasının təkcə iqtisadi yox, böyük siyasi əhəmiyyəti də vardı. Bu cəhəti nəzərdə tutan Heydər Əliyev deyirdi: **"Biz bu müqaviləni imzalamqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir".**



## XALQIN RİFAHINA XİDMƏT EDƏN NEFT STRATEGİYASI

***"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mə'nası, əsas prinsipləri Azərbaycanın zəngin, təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".***

Heydər ƏLİYEV

Odlar diyarı Azərbaycanda 150 ildən çoxdur ki, sənaye üsulu ilə neft və qaz çıxarılır. Bu müddətdə 67 neft, qaz və kondensat yatağı kəşf edilmişdir ki, hazırda onlardan 55-i istismar olunur. Yerin təkindən 1365,5 milyon ton, o cümlədən dəniz yataqlarından təqribən 430 milyon ton neft və 443,8 milyard kubmetr qaz çıxarılmışdır. Rəqəmlər yer təkindən çıxarılan təbii sərvətlərin miqdarının böyüklüyünü göstərsə də, çəkilən zəhmət, görülən işlər, aparılan danışıqlar və yeridilən siyasət barədə dolğun təsəvvür yaratmır. Bu məqamda prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin dediklərini diqqətə çəkmək istəyirəm: "Heydər Əliyevin 6 illik prezidentliyi dövründə əldə edilən ən mühüm, strateji əhəmiyyət daşıyan nailiyyətlər sırasında Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə

yönəldilmiş siyasətin işlənib hazırlanması və uğurla həyata keçirilməsi xüsusi diqqətə layiqdir. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı almış iri-miqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, iqtisadiyyata bu gün lazım olan milyardlarla dollar xarici sərmayənin respublikaya axması üçün geniş imkanlar yaratmışdır. Dünyanın 15 ölkəsinin 33 ən iri şirkəti ilə bağlanmış 19 neft müqaviləsinə əsasən Azərbaycana 60 milyard dollardan çox xarici sərmayə qoyulması gözlənilir ki, bu da ölkənin iqtisadi sistemini, müvafiq infrastrukturunu cana gətirəcək güclü maliyyə kanalıdır. Lakin neft müqavilələrinin əhəmiyyətini təkcə iqtisadi kateqoriyalarla müəyyənləşdirmək, hesab edirəm ki, onun tarixi mə`nasını azaltmaq olardı. İmzalanmış sazişlərin siyasi mə`nası, dəyəri heç də az əhəmiyyət daşımır. Dünyanın aparıcı dövlətlərinin ən qüdrətli şirkətlərinin iştirak etdiyi, sərmayə qoyduğu neft müqavilələri Azərbaycanın coğrafi-strateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirir".

Müstəqil Azərbaycanın neft sahəsindəki bugünkü müvəffəqiyyətlərinin təməli hələ otuz il bundan öncə yaradılmağa başlanmışdır. 1969-cu ildə zati-aliləri Heydər Əliyev respublikaya birinci dəfə rəhbərliyə başladığı vaxt neft sənayesinin vəziyyəti ürəkaçan deyildi. Dənizin dərinliyi 40 metrə çatan sahələrdə



bütün neft-qaz yataqları kəşf edilərək istismara verilsə də, qazma işləri görmək üçün texnika və maliyyə imkanları yox idi. Ona görə də Azərbaycanda neft və qaz hasilatının aşağı düşmə meyli müşahidə olunurdu.

Zati-aliləri Heydər Əliyev Azərbaycana rəhbərliyə başlarkən ilk növbədə neft sənayesinin vəziyyətini dərindən və ətraflı öyrəndi. Bu sahədəki mövcud problemlərlə tanış oldu, geriliyin səbəblərini araşdırdı.

Dənizin dərin yerlərində iş görmək üçün ən əvvəl 200 metrədək dərinlikdə qazma aparmağa imkan verən qurğulara ehtiyac duyulurdu. O vaxtlar nəinki Azərbaycanda, hətta keçmiş SSRİ məkanında belə qurğular nə layihələndirilir, nə də inşa olunurdu. Son dərəcə nüfuzlu, təşəbbüskar və cəsarətli şəxsiyyət lazım idi ki, yalnız Azərbaycana gərək olan belə qurğuların Sovet İttifaqında layihələndirilməsini və hazırlanmasını təşkil etsin. Möhtərəm prezidentimizin uzaqgörənliyi, SSRİ rəhbərliyi arasındakı hörməti sayəsində bu qurğuların, gəmilərin layihənlədirilməsi və hazırlanması nizama salındı. Nəticə çox uğurlu oldu. 12 il ərzində Azərbaycana 12 ədəd belə qurğu - əvvəlcə dənizin dərinliyi 70 metrədək olan sahələrdə, sonra isə 200 metrədək dərinlikdə işləyə bilən yarımdalma qurğuları gətirildi. Danılmaz həqiqətdir ki, əgər o qurğular, gəmilər Azərbaycana gəlməsəydi, indi nə "İstaqlal", nə də "Dədə Qorqud" var idi! Çünki hazırda dənizin dərin qatlarında qazma aparmağa imkan verən müasir qazma qurğuları "Şelf" tipli həmin qurğulardan düzəldilmişdir. Lakin təkcə dərin qazma qurğuları ilə məsələ bitmirdi. Belə qurğuların işini

təşkil etmək üçün çoxlu gəmi də gərək idi. "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, digər texniki gəmilər də həmin dövrdə Azərbaycana gətirilmişdir. Nəticədə, Azərbaycanda olan belə gəmilərin sayı 400-ü keçmişdi.

Yeni yataqlar açılması üçün təzə platformalara ehtiyac var idi. Bunun üçün isə Azərbaycanda - Abşeron yarımadasında zavod tikilməli idi. Sovet İttifaqından vəsait alaraq dəyəri 400 milyon dollardan artıq olan dərin dəniz özülləri üçün zavod tikdirməyi ancaq cənab Heydər Əliyev kimi şəxsiyyət bacarardı. Beləliklə, Azərbaycanda "Şelf" tipli yarımdalma qurğularının hazırlanmasına başlandı. Bundan sonra yataqlar işlənildi. İndi "Günəşli" yatağında 12 platformada 150 istismar quyusu qazılıbdır. Bu yataq Azərbaycan neftinin 65 faizini verir. Həmin zavod olmasaydı, o platformalar tikilməsəydi, indi Azərbaycanda ildə 3 milyon ton neft çıxarılardı. "Azəri", "Çıraq", "Kəpəz" yataqları "Günəşli" yatağından sonra kəşf edilmişdir. Sadaladığımız faktlar zati-aliləri Heydər Əliyevin respublikaya birinci dövrdə rəhbərlik etdiyi zaman gördüyü böyük işlərin az bir qismidir.

Doxsanıncı illərdən başlayaraq qırmızı imperiyanın dağılması respublikamızın neft sənayesində də vəziyyəti xeyli pisləşdirdi. Müttəfiq respublikalar arasında uzun illər boyu yaranaraq formalaşan iqtisadi əlaqələrin kəsilməsi bu sahədə xüsusi gərginlik yaratmışdı. Kəşf olunmuş yataqlarda iş görmək imkanı



yox idi. Halbuki həmin yataqlarda böyük ehtiyatlar olduğu hamıya bəlliydi. Amma texnika və maliyyə vəsaiti olmadığından gözləmək məcburiyyətindəydik. Ölkədəki hakimiyyətsizlik, qanunların işləməməsi və qeyri-sabitlik ucbatından xarici ölkələrin neft şirkətləri ilə birgə işləmək niyyəti də baş tutmurdu.

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan zati-aliləri Heydər Əliyev Azərbaycanı məhvolma təhlükəsindən xilas etməklə bərabər, neft sənayesini də böhran və tənəzzüldən qurtardı. Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən Heydər Əliyev müqavilə bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən rəhbərlik etdi. Tarixi qayıdışından az sonra - 1994-ci il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Bu müqavilənin bağlanması xarici şirkətlərin Bakıya axınını qat-qat artırdı. Beləliklə, "Əsrin müqaviləsi" ilə hörmətli prezidentimizin rəhbərliyi altında imzalanmış və sərmayə qoyuluşu 60 milyard dollar olan 19 müqavilənin başlanğıcı qoyulmuş oldu.

Azərbaycanda yeni neft erasının başlanması xarici ölkə mətbuatının nəzərindən yayınmamışdır. Fransada çıxan həftəlik ictimai-siyasi "Ekspress" jurnalının 17-23 aprel 1997-ci il tarixli 2389-cu nömrəsində Silver Pasker yazırdı: "...Avropadan, ABŞ-dan, Orta Şərqdən və Asiyadan gəlmiş neft menecerləri, biznesmenlər, agentlər, diplomatlar burada, Azərbaycanda təqribən 10 min nəfərdir. Onların hamısı Xəzər neftinin iyini duyaraq nəfəslərini burada dərmişlər. ABŞ energetika nazirinin rə'yincə Xəzərdəki neft ehtiyatları "dünya

əhəmiyyəti"nə malikdir. Bə`zi mütəxəssislər bildirirlər ki, Azərbaycanın neft ehtiyatları 30 milyard barreldir, özü də bu neft olduqca yüksək keyfiyyətlidir. Digərlərinin hesablamalarına görə, buradakı neft ehtiyatları 70 milyard barreldən 250 milyard barrelə qədərdir. Belə bir potensialı isə İran körfəzinin ehtiyatları ilə müqayisə etmək olar. Ekspertlər son dərəcə nikbindirlər. Luiziana ştatından olan amerikalı deyir: "Burada o qədər çox yataq var ki, onlardan hər şey gözləmək mümkündür!" Azərbaycan Milli Neft Şirkətinin başçısı Natiq Əliyev bildirir ki, "Xəzərdəki 200-dən artıq neft perspektiv strukturdan təxminən 145-i dənizin Azərbaycan sektorundadır".

Hələ Marko Polo Azərbaycan neftindən yazmışdı. XIX əsrin axırlarında maqnatlardan Nobel və Rotşildlər Azərbaycan neftinin hasilatında yaxından iştirak edirdilər. İndi isə "AMOKO", "Britiş Petroleum", "Elf Akiten" və "İtoçu" şirkətləri Azərbaycana sərmayə qoyurlar. XIX əsrin axırlarında ABŞ ilə rəqabətə girən Bakı dünya neft hasilatının yarısını tə`min edirdi".

Bu gün yenə birincilik Azərbaycana qayıdır. Təəssüf ki, bunu gözügötürməyənlər də var. Özü də onların bir qismi ölkə vətəndaşları, necə deyərlər, "sapı özümüzdən olan baltalar"dır. 1994-cü ilin sentyabrında Azərbaycanda ilk neft müqaviləsi - "Əsrin müqaviləsi" bağlanandan sonra başımız çox bəlalar çəkdi. Terror aktları, dövlət çevrilişi cəhdləri və başqa cinayətlər törədildi. 1994-cü ilin sentyabrında Surət Hüseynov dövlət çevrilişi cəhdi törətdi. Hədə-qorxu gəlməklə AXC-ni hakimiyyətdən uzaqlaşdıran S.Hüseynov bu dəfə də asanlıqla məqsədinə nail olacağını düşünürdü. Ancaq bərk yanılmışdı. Xalqın dəstəyinə arxalanan dünya şöhrətli siyasətçi Heydər Əliyev ölkə vətəndaşlarına müraciət etdi. Qısa vaxtda respublikanın hər yerindən uşaqdan böyüyədək minlərlə adam Bakıya axışdı, öz prezidenti ilə həmrə`y olduğunu, onu müdafiə etdiyini əyani şəkildə göstərdi. Heydər Əliyev uzaqgörənliyi və qətiyyəti sayəsində dövlət çevrilişi cəhdinin qarşısı müvəffəqiyyətlə alındı. R.Cavadovun başçılığı ilə mart 1995-ci il dövlət çevrilişi cəhdi də xalqın dəstəyi və prezidentin qətiyyəti sayəsində puça çıxarıldı. Azərbaycanın müstəqillik qazanması, Dünya Birliyində özünə layiq bir yer tutması üçün inamlı addımlar atması çoxlarına xoş gəlmirdi. Möhtərəm prezidentimizin siyasətdə "neft amili"ndən bacarıqla "istifadə etməsi, ölkə daxilində möhkəm və dönməz sabitlik yaradaraq dünyanın nəhəng şirkətlərini respublikaya gətirməsi bir qism adamlara xoş gəlmir, yuxularını ərşə çəkirdi. "Azərbaycanda hər şey yaxşı yox, pis olsun" mövqeyindən çıxış edənlər neft müqavilələrinin də əleyhinə gedirdilər. "Əsrin müqaviləsi" Milli Məclisdə müzakirə olunarkən müxalifət qüvvələri bunun əleyhinə çıxaraq belə fikirlər söyləyirdilər ki, nə üçün biz öz sərvətlərimizi xarici ölkələrə, şirkətlərə veririk, bu sərvətləri saxlamalıyıq, nefti sonra özümüz çıxarmalıyıq və ondan xalqımız üçün istifadə etməliyik. Ancaq başa düşmürdülər ki, özümüz bu işi 15-20 il bundan sonra da görə bilmərik.

Özünü "neft bilicisi" hesab edən Rəsul Quliyevin neft müqavilələrinin bağlanılmasına münasibəti də müəmmalı olmuşdur. Əslində o, açıq şəkildə müqavilələrin əleyhinə çıxmasa da, müxtəlif vasitələrlə, gizli yollarla onların bağlanmasına mane olmağa çalışırdı. Mə`lumdur ki, R.Quliyev uzun illər "Azərneftyağ" İstehsalat Birliyinə başçılıq etmişdir. 1992-ci ildə o vaxtkı respublika rəhbərliyinin kadr siyasətinin nəticəsi kimi qısa müddətdə ARDNŞ-in vitse-prezidenti, oradan isə Baş nazirin müavini vəzifəsinə tə`yin olundu. 1993-cü ildə ölkədə son dərəcə ağır durum vardı. Belə bir zamanda R.Quliyev bütün çıxışlarında H.Əliyev siyasətini dəstəklədiyini bəyan edir və bu da prezidentin ona inamını artırırdı. Belə bir inamın mövcudluğu sayəsində Milli Məclisin sədri kimi mühüm bir vəzifənin ona tapşırılması məsləhət bilinmişdi. Zati-aliləri H.Əliyev dəfələrlə qeyd etmişdir ki, S.Hüseynov, R.Quliyev kimi adamlarla işləyərkən özünün geniş təcrübəsini, idarəetmə qabiliyyətini, siyasi dünyagörüşünü bunlara öyrətmək istəmiş, onlara yalnız bir əqidə — Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, onu dünyanın sivil dövlətinə çevirmək naminə çalışmaq ruhunu aşılamaq olubdur. Lakin, görünür, bu tip adamları yalnız bir şey — vəzifə hərisliyi düşündürür və bunun üçün onlar hər şeyə — hətta vətənin və xalqın mənafeyinə zidd getməyə, düşmən kəsilməyə də qadirdilər.

Dövlətdə ikinci şəxs olmaqla kifayətlənməyən R.Quliyev Heydər Əliyevə sadiq adamları gözdən salmağa, əl altından vəzifədən uzaqlaşdırmağa



çalışırdı. Digər tərəfdən isə "prezident" olmaq kimi boş xülyaya düşmüşdü. R.Quliyev "Azərneftyağ" İB-yə başçılıq etdiyi dövrdə zavodu qara günə qoyaraq onun qazancı hesabına var-dövlət sahibinə çevrilmişdir. Faktlar sübut edir ki, o şəxsi mənafeyi naminə bir çox cinayətlərə əl atmış, kollektivin zəhməti hesabına qazanılan vəsaiti uzun illər boyu müxtəlif kanallarla xarici banklarda açdırdığı hesablara köçürmüşdür. Rəsmi mə`lumata görə, təkcə bir hesabda onun 100 milyondan artıq ABŞ dolları vardır. Araşdırmalara görə, buraxılan məhsullarla satılan məhsulun qiyməti arasındakı fərq 2,3 milyard dollar təşkil edir. Barter üsulu ilə xarici ölkələrdən alınan avadanlıqların qiyməti xeyli artırılmışdır. 133 markalı borunun daxili bazarda qiyməti 180-190 dollar olduğu halda 700-800 dollara alınmışdır. Texnoloji qurğuların tə`miri üçün xarici ölkələrdən baha qiymətə alınan yüzlərlə avadanlığın keyfiyyəti aşağı olduğuna görə ondan istifadə edilməmişdir.

R.Quliyev "Azərneftyağ" İB-yə başçılıq etdiyi dövrlərdə strateji əhəmiyyətli bu müəssisəni özəl firma və kooperativlərin məskəninə çevirmişdi. İstehsal sahəsində fəaliyyət göstərən 138-ə yaxın müəssisə istifadə etdikləri elektrik və istilik enerjisinin haqqını belə ödəməmişdir. Neft məhsullarından israfçılıqla istifadə edilmişdir. Neftayıranların mənzil problemini həll etmək məqsədilə respublikada olan tikinti idarələri ilə deyil, xarici şirkətlərlə iş görmüş, müqavilə bağlayaraq külli miqdarda vəsaiti onların hesabına köçürmüşdür. Sonralar həmin mənzillərin bir kvadrat

metri belə istifadəyə verilməmişdir. R.Quliyev dövlət vəsaitini müxtəlif üsul və vasitələrlə tarac etmişdir. O, xarici turizm adı ilə külli miqdarda zavod vəsaitini özəl firmalara köçürmüş, tanışlarının müəssisələrinə maliyyə yardımı göstərmiş, kreditlər vermişdir. Məsələn, R.Quliyevin icazəsilə "Azakbank" vasitəsilə "Xarı bülbül" müəssisəsinə 500 min dollar kredit buraxılmışdır. Texnoloji qurğuların bərbad vəziyyətə düşdüyü bir vaxtda bununla məşğul olmamış, əvəzində zavoda dəxli olmayan televizor istehsalı üçün milyardlarla manat vəsait ayırmışdır.

R.Quliyevin və onun əlaltılarının "Azərneftyağ" İB-yə vurduqları ziyanın sayı-hesabı yoxdur. 1995-ci ildə əsaslı tə`mir üçün 150-dən çox müəssisə ilə müqavilə bağlanaraq 12 milyard əvəzinə 28 milyard manat xərclənmişdir. 1996-cı ildə isə nəzərdə tutulan 18 milyard manata qarşı 65 milyard manatlıq vəsait sərf edilmişdir. Bu işi 179 müəssisə yerinə yetirmişdir. Belə çirkin yollarla topladığı pulları xarici banklarda saxlayan R.Quliyev onları sığortalamaq üçün ixtira və səmərələşdirici təklifləri ilə əldə etdiyini söyləyir. Onun bu iddiası kollektivimiz tərəfindən ətraflı yoxlanılarkən mə`lum oldu ki, R.Quliyev 1986-cı ilin yanvarından 1992-ci ilə qədər cəmi 6 ixtira və səmərələşdirici təklifin kollektiv müəlliflərindən biri olmuş, üst-üstə 4637 rubl qazanmışdır. Bu bir daha sübut edir ki, Rəsul Quliyev cinayətkarcasına topladığı pulları heç bir vaxt ört-basdır edə bilməyəcəkdir!

R.Quliyevin diletantlığı Baş nazirin müavini və sonralar Milli Məclisin sədri vəzifələrində işlərkən



özünü daha çox büruzə vermişdir. Özünü "neft sənayesinin bilicisi" kimi qələmə vermək cəhdinə baxmayaraq neft sənayesinin problemləri, xarici neft şirkətləri ilə danışıqlar aparılmasına münasibətdə mövcud fikir ayrılıqları respublika prezidenti yanında keçirilən bir çox görüşlərdə kəskin xarakter alırdı. Qəribədir ki, 1996-cı ildə "Şahdəniz" müqaviləsinin imzalanması ərəfəsində R.Quliyev onun əleyhinə çıxmışdır. İmzalanma mərasiminə bir həftə qalmış R.Quliyev prezident Heydər Əliyevin yanına gedərək Dövlət Neft Şirkətindən olan adamların ona düzgün mə`lumat vermədiyini, müqavilədə çoxlu səhvlər, bizim üçün zərərli şeylər olduğunu söyləmişdir. Bildirilən hər fikri nəzərə alan zati-aliləri Heydər Əliyev R.Quliyevin dediklərini diqqətdən kənarda qoymamışdır. Baş nazir A.Rasizadəni və Dövlət Neft Şirkətinin bütün rəhbərlərini birlikdə də`vət edərək R.Quliyevə müqavilədəki səhvləri göstərməsini, onun imzalanmasının qeyri-mümkünlüyünü sübuta yetirməsini tələb etmişdir. Bu zaman o, cəfəng danışmağa, əsassız fikirlər deməyə başlamışdır. Respublikanın tanınmış neft mütəxəssisləri ARDNŞ-in prezidenti Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov və başqaları çıxış edərək onun fikirlərinin əsassızlığını, ümumiyyətlə neft məsələsindən başının çıxmadığını sübuta yetirmişlər. Bu gün "Şahdəniz" yatağında əldə edilmiş nəticələr R.Quliyevin qərəzli, H.Əliyevin yeni neft strategiyasının isə son dərəcə doğru və uğurlu olduğunu bir daha aşkar göstərir. Belə ki, cəmi 2 il ərzində "Şahdəniz" neft yatağına 367 milyon dollar

vəsait qoyulubdur. Onun böyük bir hissəsi — 105 milyon dolları işlədiklərinə görə Azərbaycanın şirkətlərinə verilmiş, vergi ödənilmişdir. Deməli, Azərbaycana fayda gətirmişdir. Geoloqların verdikləri ilkin mə`lumata görə, "Şahdəniz" strukturunda 700 milyard kubmetrdən artıq karbohidrogen ehtiyatı vardır. Bu, indiki mərhələdə əsas məsələyə - Azərbaycandan qaz ixracı məsələsinə də ciddi yanaşılmasını tələb edir. Çünki hesablamalar göstərir ki, "Şahdəniz" yatağından 25 il müddətində ildə 16-20 milyard kubmetr qaz ixrac oluna bilər. Bununla da Azərbaycan neft sənayesi yeni mərhələyə qədəm qoyur: Neft kəmərləri ilə yanaşı Azərbaycandan dünya bazarına qaz ixracı üçün boru kəmərləri çəkilişi mərhələsinə! Bunu nəzərdə tutan zati-aliləri Heydər Əliyev demişdir: "Azərbaycanda böyük neft ehtiyatları vardır, böyük qaz ehtiyatları vardır və bunların işlənməsi, dünya bazarlarına çıxarılması bizim bugünkü və gələcək vəzifələrimizdir".

Heydər Əliyev tərəfindən işlənib hazırlanan və çox uğurla həyata keçirilən yeni neft strategiyası sayəsində son illər Azərbaycan dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir. Bununla yanaşı, Azərbaycan Avropa ilə Asiyanın qovuşduğu bir yerdə yerləşdiyinə, öz coğrafi və geopolitik vəziyyətinə görə Avropa-Asiya iqtisadi, nəqliyyat əlaqələrinin də yaranmasında və inkişaf etməsində xüsusi rol oynayır. Son vaxtlar bu sahədə də xeyli işlər görülmüşdür. Xəzər hövzəsində qonşu ölkələrlə birlikdə bizimlə müştərək iş görən və Mərkəzi Asiya, Qazaxıstan ərazisində fəaliyyət göstərən xarici ölkələrin şirkətləri ilə aparılan birgə



işlərin nəticəsində transqafqaz magistralı, Avropa-Asiya nəqliyyat dəhlizi yaranmışdır. Bu nəqliyyat dəhlizi artıq fəaliyyət göstərir, öz səmərəli nəticələrini verir. O, Mərkəzi Aśiya, Qazaxıstan ölkələri, Azərbaycan, Gürcüstan respublikaları üçün və ölkəmizdə fəaliyyət göstərən başqa ölkələrin şirkətləri üçün çox fayda gətirir; Bütün bunlar Xəzər dənizi hövzəsindəki neft yataqlarında xarici ölkələrin neft şirkətləri ilə birgə fəaliyyətin bəhrəsidir. Transqafqaz magistralının, Avropa-Asiya nəqliyyat dəhlizinin işə düşməsi respublikamızın, ölkəmizin həyatında yeni, çox ümidverici hadisələrdir. Bunların hamısı Azərbaycan iqtisadiyyatının yüksəldilməsi sahəsində görülən səmərəli tədbirlərin nəticəsidir və ölkəmizin Dünya Birliyinə daha sıx inteqrasiyasını əyani şəkildə nümayiş etdirir. Möhtərəm Heydər Əliyevin dediyi kimi: **"Bunlar hamısı bizim siyasi və iqtisadi strategiyamızın nə qədər düzgün, məqsədəuyğun və Azərbaycan xalqının milli mənafelərini tə`min edən olduğunu bir daha sübut edir".**

## İLHAM ƏLİYEV FENOMENİ VƏ MÜASİR SİYASƏT

***Bu dövr Azərbaycan üçün çox vacib olan bir dövrdür. Bu dövrdə Azərbaycanın mövqeyini müdafiə edən şəxslərə ehtiyac böyükdür. İlham Əliyevin diplomatiyası bu baxımdan əvəzsiz mə`na kəsb edir".***

**Əndri FOKLER,**
*"Yunokal" şirkətinin vitse-prezidenti*

Siyasətdə irsiyyət hamı tərəfindən qəbul edilən və normal sayılan mövcudluqdur. Əslində dövləti və xalqı tərəqqinin zirvəsinə aparan yolun "uzunluğu" siyasətdə irsiyyət və davamçılığın vacibliyini zərurətə çevirir.

Hazırda müstəqil Azərbaycanın siyasi mühitində "cavanlaşmaya" doğru güclü meyl duyulmaqdadır. "Böyük siyasət" aləmində dünyaya göz açan, planetimizin ən nəhəng siyasi xadimindən "dərs alan" İlham Əliyev heç kəsə nəsib olmayan həyat yolu keçmiş, bənzərsiz bir "məktəbdə" tərbiyələnmişdir. Sonralar "ilkin bilikləri" o dövrün xüsusi və nadir təhsil ocaqlarından sayılan Moskvadakı Beynəlxalq Əlaqələr İnstitutunda elmi cəhətdən daha da zənginləşmişdir. Ailəsi ilə birlikdə "siyasi yüksəliş", "tə`qiblər", "böyük siyasətdən kənarda", "yeni dövrün yeni siyasəti" mərhələlərini yaşayan, özü yaşdakı hər siyasətçiyə nəsib olmayan anların, günlərin və illərin şahidi olan, müxtəlif sınaqlardan çıxan siyasət



aləminin yeni ulduzu İlham Əliyev artıq zəngin təcrübəyə malikdir. O, bu gün də Heydər Əliyev adlı canlı və daim fəaliyyət göstərən qeyri-adi, tarixdə bənzəri olmayan "məktəbin" dinləyicisi, ə`laçı tələbəsi, mə`zunudur! İste'dadla taleyin yaratdığı imkan birləşəndə mahir siyasətçilər meyana gəlir. Neft sahəsindən müasir siyasətə qədəm qoyan İ.Əliyev məhz belə siyasətçilərdəndir.

İlham Əliyev 1997-ci ilin fevral ayının 10-12-də ABŞ-ın Hyuston şəhərində Kembric Enerji Tədqiqatları Assosiasiyasının enerji problemlərinə aidd keçirdiyi beynəlxalq konfransda, 1998-ci ilin mart ayında isə Vaşinqtonda, Los-Ancelesdə və San-Fransiskoda bir sıra konfransların, seminarların işində iştirak etmişdir. Səfərlər dövründə ABŞ-ın dövlət və siyasi xadimləri, işgüzar dairələrin nümayəndələri ilə görüşüb səmərəli danışıqlar aparan, Amerikanın çox nüfuzlu siyasi qəzetlərinə müsahibələr verən İ.Əliyevin diplomatik məharəti hamını heyran qoymuşdur. Əlbəttə, ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin ABŞ-a səfərləri respublika mətbuatında kifayət qədər işıqlandırılmış, bu barədə geniş informasiya verilmişdir; Odur ki, biz bu barədə ətraflı söhbət açmaq niyyətində deyilik. Sadəcə olaraq, İ.Əliyevin öz siyasi fəaliyyəti ilə Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının davamçısı oldduğunu konkret faktlarla göstərmək istəyirik. Bu cəhət əsasən onun diplomatik fəaliyyətinin Azərbaycan neftindən, neft amilindən Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin mənafeyi

naminə istifadəyə nail olmaq cəhdində öz ifadəsini tapır. Deyilənləri sübuta yetirmək üçün biz İlham Əliyevin müxtəlif məqamlarda söylədiyi fikirləri diqqətə çəkmək istəyirik.

—"Mə`lumdur ki, neft bə`zən çiçəklənmə, inkişaf gətirir, bə`zən düşmənçiliyə səbəb olur. Biz indidən elə etməliyik ki, neft beynəlxalq əməkdaşlıqda Azərbaycanın mövqeyini daha da möhkəmləndirsin, xalqımızın gələcək firavan həyatının möhkəm əsası qoyulsun. Mən əminəm ki, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü tezliklə tə`min olunacaq, xalqımız sülh şəraitində yaşayacaq və gələcəkdə biz neftdən gələn gəlirləri sosial sahəyə — səhiyyə, mədəniyyət, təhsil sahələrinə yönəldəcəyik. Mən inanıram ki, Azərbaycan beynəlxalq aləmin mühüm, ayrılmaz bir hissəsi kimi durmadan inkişaf edəcəkdir".

— "Bə`zən soruşurlar ki, neft müqavilələri gələcəkdə Azərbaycana nə verəcək? Birincisi, ölkə iqtisadiyyatının digər sahələrinə sərmayə axını tə`min ediləcəkdir. Bu, artıq müşahidə olunur. İndi iqtisadiyyatımızın digər sahələrinə də xarici sərmayə qoyulur. Azərbaycan yeni, müasir texnologiyalar əldə edəcəkdir. Bildiyiniz kimi, xarici ölkələrin aparıcı neft şirkətləri çox müasir texnologiyaya malikdirlər və onlar Azərbaycanda bizim neftçilərimiz, fəhlələrimiz, mütəxəssislərimiz üçün tə`lim kursları açıblar. Eyni zamanda hər il neftçilərimiz xaricdə də tə`lim kursları keçirlər, yeni texnologiyanı mənimsəyirlər. Gələcəkdə Azərbaycanın çoxlu yeni müəssisəsi yaradılacaq və



onlar xarici neft şirkətlərinə xidmət edəcəklər. Bizim bir neçə müştərək müəssisəmiz artıq yaradılmışdır, onlar böyük sifarişlər alıblar və çox səmərəli, böyük rentabelliklə fəaliyyət göstərirlər.

Xarici şirkətlərin ödədikləri vergilərdən büdcəyə mədaxil xeyli artacaqdır. Müxtəlif sənaye və xidmət sahələrində minlərlə yeni iş yeri yaradılacaqdır. Nəhayət, Azərbaycan neft satışından on milyardlarla dollar götürəcəkdir ki, bu da geniş sosial proqramları həyata keçirməyə, əmək haqlarını və pensiyaları artırmağa, imkansız ailələrə, müharibə əlillərinə və qaçqınlara kömək etməyə imkan verəcəkdir".

— "Mən əminəm ki, Azərbaycanı böyük gələcək gözləyir. Mən buna əminəm. Gələcəyin, sənaye inkişafının əsası, əhalinin rifah halının artmasının bazası indidən qoyulmuşdur. Neftdən gələn gəlir sənayenin digər sahələrini də inkişaf etdirəcək, gələcək yalnız neftdən asılı olmayacaqdır. Neft məqsədə çatmaq üçün bizim istifadə etdiyimiz vasitədir. Özü-özlüyündə neft məqsəd deyildir. Mən nikbinəm. Mə`lumdur ki, neft ölkələrə həm müharibə, həm də tərəqqi gətirə bilər. Lakin mən əminəm ki, Xəzər nefti bizim regiona sülh gətirəcək, sabit həyat, sərbəst ticarət və gələcək nəsillər üçün tamamilə yeni imkanlar açacaqdır".

— "Lap yaxın gələcəkdə biz ildə 50 milyon ton neft hasil edəcəyik. Bu da həm neft sənayesinin, həm də neftlə bağlı olmayan digər sahələrin inkişafına təkan verəcək, əhalinin gələcək firavan həyatının təməli qoyulacaqdır. Lakin neft bizim üçün məqsəd deyildir.

Neft məqsədə çatmaq üçün istifadə etdiyimiz vasitədir. Neft imkan verəcəkdir ki, ölkəmizin iqtisadi inkişafı daha da sür`ətlənsin, müstəqilliyimiz daha da möhkəmlənsin".

Sitatların sayını artırmaq da olar. Lakin biz bunlarla kifayətlənir, "Dünya neft sənayesinin tarixi" adlı məşhur kitabın müəllifi Daniel Yorgenin bir fikrini xatırladırıq: "Cənab İlham Əliyev neft sənayesinin müvəffəqiyyətli inkişafı üçün çalışan şəxslərdən biridir. Neft şirkətləri onu öz sahəsini dərindən bilən bir mütəxəssis kimi tanıyırlar".



## AZƏRBAYCANDA NƏ QƏDƏR NEFT VƏ QAZ EHTİYATI VAR?I

***"Mən bu gün tam qətiyyətlə demək istəyirəm ki, XXI əsrdə Xəzər dənizi neft-qaz sahəsində dünyanın ən zəngin mərkəzlərindən biri olacaqdır".***

**Heydər ƏLİYEV**

Əsrin əvvəllərində Bakı dünyanın "neft mərkəzləri"ndən birinə çevrilərək uzun müddət birinciliyi əldə saxlamışdı. İkinci dünya müharibəsi dövründə isə cəbhənin yanacaqla təchizi sahəsində bütün ağırlığı çiyinlərində daşıyan abşeronlu neftçilər hasilatı xeyli artırdılar. Lakin respublikamızda neft və qaz istehsalı yüksələn xətlə inkişaf etmədiyindən bə`zən "neftin tükənməsi" fikri də eşidilirdi. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan və Xəzərdəki karbohidrogen ehtiyatları ilə dünya bazarına çıxmaq məsələsi gündəliyə gətirildikdən sonra bədxahlarımız tərəfindən bu fikir daha tez-tez səsləndirilməyə başlanmışdı. Məqsəd aydın idi: xarici dövlətlərin iri neft şirkətlərini Xəzərdəki karbohidrogen ehtiyatlarının kifayət qədər olmadığına inandırmaq və onları ölkəmizə sərmayə qoymaqdan çəkindirmək! Təəssüf ki, bə`zən bu məkrli söz-söhbətlər qəsdən, yaxud təsadüfən özümüzün neft mütəxəssislərimiz tərəfindən dolayısı yolla "təsdiq edilirdi". Başqa sözlə, neft sahəsindəki ayrı-ayrı səlahiyyət sahibləri müxtəlif yataqlardakı neft ehtiyatı barədə proqnozları söyləyərkən "kiçik rəqəmlərə"

istinad edirdilər. Bütövlükdə belə "ehtiyatlılıq" xarici neft şirkətləri rəhbərlərində bir tərəddüd yaradır, ölkəmizə sərmayə gətirilməsini ləngidirdi. Əlbəttə, gec-tez həqiqət üzə çıxmalıydı və bu gün Xəzərdəki neft ehtiyatları barədə təkcə yüksək rəqəmlər söylənilmir. Həm də deyilənlər qazılan kəşfiyyat quyuları, çıxarılan neftin və qazın miqdarı ilə hər dəfə təsdiq olunur.

Xoşbəxtlikdən bütün dövrlərdə Azərbaycanda yüksək biliyə və zəngin təcrübəyə malik vətəndaş qüdrəti və cəsarəti olan, xalqın və dövlətin mənafeyini hər şeydən yüksək tutan insanlar da yaşayıb. Beləlləri heç nəyə baxmadan, bütün təzyiq və tə`sirlərdən çəkinmədən bildikləri həqiqəti ucadan söyləmiş, lazım gələndə müdafiə etməyi bacarmışlar. Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin baş direktoru, Azərbaycan Milli Geofizika Komitəsinin prezidenti, Amerika-Kanada Kəşfiyyat Geofizika Assosiasiyası Azərbaycan bölməsinin prezidenti, Avropa Geofiziklər Cəmiyyətinin üzvü, Beynəlxalq Geofizika Cəmiyyətinin həqiqi üzvü, bir neçə xarici dövlətlərin neft cəmiyyətlərinin üzvü, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktoru, əməkdar elm və texnika xadimi, geologiya-minerologiya elmləri doktoru, professor, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki Kərim Kərimov məhz belə insanlardandır. Biz Kərim Kərimovun bütün titullarını axıradək sadalamadıq. Amerika Bioqrafiya İnstitutu tərəfindən 1998-ci ilin adamı seçilən Kərim müəllim çoxcəhətli iste`dad sahibi, "universal adam"dır.



Abşeron yarımadasının qurudakı və dənizdəki neft laylarına dərindən bələd olan Kərim Kərimov dərin elmi biliyi və analitik təfəkkürü sayəsində mövcud neft və qazın miqdarını dəqiqliklə hesablamağı bacarır. Onun söylədiyi rəqəmlər ilk vaxtlar "fantastikliyinə" görə hətta bə`zi neft mütəxəssisləri tərəfindən təsdiq edilməsə də, sonralar zaman hər şeyi öz yerinə qoyur, Kərim müəllim deyən olur! "Mübahisəli proqnozlar" müəllifi Kərim Kərimov bu barədə belə söylədi:

— Vətənin daim onu sevən bilikli, təcrübəli və səriştəli oğullara ehtiyacı var. Mən də bütün varlığımla xalqıma bağlıyam. 1988-ci ildən sonra Azərbaycanın düşdüyü vəziyyət bir övlad kimi məni də ağrıdır. Xalqımızın başına gətirilən bəlalar uzun illərin "bəhrəsidir" və respublikanın əvvəlki başçılarının belə bir vəziyyətin yaranmasında böyük təqsirləri var. Ölkəni bu bəladan yalnız hörmətli prezidentimiz Heydər Əliyev qurtarmağa qadirdir. Azərbaycan tarixində onun kimi böyük şəxsiyyətimiz olmayıb. Heydər Əliyev sabitliyin və müstəqilliyimizin tə`minatçısıdır. Onun qətiyyəti və uzaqgörənliyi sayəsində respublikada yaranmış sabitlik Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasına imkan vermişdir. Bizi istəməyənlər təkcə xaricdən yox, daxildən də zərbə vurmağa çalışır, sosial gərginlik törətməyə can atırlar. Hamımız prezidentə arxa durmalı, onun müdrik daxili və xarici siyasətinə dəstək verməliyik. Azərbaycanın bu günü və sabahı neftlə bağlıdır. Neftə qoyulan sərmayə və gələcəkdə neft satışından götürüləcək gəlir xalqımızı müsibət və

çətinlikdən qurtaracaqdır. Odur ki, Azərbaycan neftinin dünya bazarına çıxması çoxlarını narahat edir. Onlar ilk günlərdən Xəzərdə cüzi neft ehtiyatı olduğunu söyləyirdilər. Yaxşı yadımdadır, bə`zi neft mütəxəssisləri "Əsrin müqaviləsi"ndən əvvəl "Çıraq", "Azəri" və "Günəşli" yataqlarındakı neft ehtiyatının miqdarının 500 mln. tondan artıq olmadığını iddia edirdilər. Mən ilkin hesablamalar apardıqdan sonra oradakı neft ehtiyatının 750 mln. tondan artıq olduğunu bildirdim və əvvəlki rəqəmi azı 200 mln. ton artırmağı təklif etdim. 1992-ci ilin oktyabrında ABŞ-la birgə müəssisə yaratmaq üçün Amerikaya getməzdən əvvəl bu barədə qəzetə müsahibə də verdim. ABŞ-a səfərin səhəri günü "Amoko"nun prezidenti məni görüşə də`vət edərək "Azərbaycan" qəzetində yenicə dərc olunmuş "Amoko" Azərbaycanı nə az, nə çox - düz 100 mln. ton aldadır!" adlı müsahibəni göstərdi. Mən şirkətin prezidentinə izah etdim ki, söhbət kiminsə kimi aldatmağından yox, yataqdakı mövcud ehtiyatdan və onun az göstərilməsindən gedir. Sonra onu öz hesablamalarımla tanış etdim və dediklərimə inandırdım. Qeyd edim ki, ABƏŞ-in prezidenti Terri Adams Azərbaycandan geriyə qayıdarkən özü də e`tiraf etdi ki, "o vaxt biz neft ehtiyatını 100 mln. ton az hesablamışdıq, amma bu gün neft daha çoxdur". Başqaları kiçik rəqəmləri sün`i surətdə şişirdirlər. Bizdə isə əksinədir, çox vaxt olanı az göstərirlər.

Xarici şirkətlərlə "Şahdəniz" yatağı ilə bağlı ilkin görüşlər zamanı mən orada azı 500 mlrd. kubmetr qaz və 200 mln. ton neft olduğunu söylədim.





1998



*Father's advice. / Ata məsləhəti*



*Washington. / Vaşinqton*



*At the "Chirag" platform — 1997 / "Çıraq" platformasında. 1997*



*USA, Washington. The White House / ABŞ, Vaşinqton. Ağ ev*



*USA, Washington — 1997 / ABŞ, Vaşinqton — 1997*



*Washington — 1997 / Vaşinqton — 1997*





*The initial burning of perpetual fire on "Shahidlar Khiyabani" / Şəhidlər Xiyabanında "Əbədi məş'əl"in yandırılması.*



*Pre-election campaign. 1998 / Seçkiqabağı kampaniya. 1998*






*Pre-election campaign. 1998 / Seçkiqabağı kampaniya. 1998*





*Bilasuvar. The meeting with refugees. 1998 / Biləsuvar. Qaçqınlarla görüş. 1998*





*Bilasuvar. The meeting with refugees. 1998 / Biləsuvar. Qaçqınlarla görüş. 1998*





*Baku — 1998 / Bakı — 1998*



*Baku — 1998 / Bakı — 1998*



*The president together with his family members. / Prezident ailə üzvləri ilə birlikdə. 1999*



*London — 1997 / London — 1997*



"Chirag-1" platform — 1997 / "Çıraq-1" platforması. 1997

Proqnozlarıma cavabdehlik daşıdığımı, kəşfiyyat quyularının harada qazılmalı olduğunu göstərəcəyimi də bildirdim. O zaman bir qərara gələ bilmədilər.

"Şahdəniz" yatağı ilə mən bir alim kimi məşğul olmuşam. Hesablamalarımız geofiziki parametrlərə əsaslanan analizlərə söykənir. Doğrudur, mətbuatda da mənim proqozlarımın əleyhinə çıxışlar təşkil edildi. Amma zaman mən deyənləri təsdiq etdi. Mənə qarşı çıxanlar Azərbaycana tez bir zamanda külli miqdarda sərmayə gətirilməsini istəməyənlər idi. BU GÜN TAM CƏSARƏTLƏ DEYİRƏM: "ŞAHDƏNİZ" YATAĞINDA 500 MLRD. KUB METR YOX, 1,5 TRİLYON KUBMETR QAZ EHTİYATI VAR! ELMİ CƏHƏTDƏN ƏSASLANDIRILMIŞ PROQNOZLARIMA İSTİNADƏN BƏYAN EDİRƏM: AZƏRBAYCANDA AZI 4 TRİLYON KUBMETR QAZ, 8,7 MLRD. TON NEFT EHTİYATI VAR! BÜTÖVLÜKDƏ AZƏRBAYCANDAKI NEFTİN MİQDARI KÜVEYTDƏ OLAN NEFTDƏN 24-25 FAİZ ÇOXDUR!

Bu qədər təbii sərvətdən Azərbaycan xalqının və dövlətimizin mənafeyinə istifadə etmək üçün bizə Heydər Əliyev kimi müdrik və uzaqgörən rəhbər havasutək lazımdır!

Ölkəmizdə külli miqdarda neft-qaz ehtiyatı olduğunu bilən Rusiyanın bə`zi "siyasətçiləri" Xəzər dənizindən və Azərbaycan ərazisindən neft kəmərlərinin çəkilməsinin mümkün olmadığı barədə mətbuatda bəyanatlar verdilər. Dərhal bu işlə yaxından məşğul olduq. Ciddi elmi araşdırmalarımız Azərbaycan ərazisində seysmoloji, palçıq vulkanları və sürüşmələr baxımından neft kəmərləri çəkilməsinin

mümkünlüyünü və təhlükəsizliyini sübuta yetirdi. Kəmərin marşrutu boyu bütün təhqiqatlar aparıldı, hesablamalar çıxarıldı.

Məsələyə aydınlıq gətirmək və əsassız söz-söhbətə son qoymaq üçün Xəzəryanı dövlətlərin alimlərinin iştirakı ilə bu mövzuda beynəlxalq seminar çağırdıq. Qazaxıstan, Türkmənistan, Özbəkistan, Moskva, İran, Gürcüstan və Türkiyədən gəlmiş alimlərin yekun rə`yi belə oldu ki, deyilənlər boş söz-söhbətdir, həqiqətə uyğun deyil! Beynəlxalq seminar iştirakçıları adından Azərbaycan prezidenti zati-aliləri Heydər Əliyevə qəbul olunmuş müraciətdə də göstərilirdi ki, Türkmənistandan üzü bəri neft kəməri çəkmək olar, heç bir təhlükə mövcud deyil!

Belə hesab edirəm ki, alimin elmi ilə yanaşı vətəndaş mövqeyi də olmalıdır!

Artıq xarici şirkətlər tərəfindən Azərbaycanın neft sənayesinə 2,3 milyard ABŞ dolları həcmində sərmayə qoyulub. 19 neft müqaviləsindən ölkə iqtisadiyyatına qoyulacaq sərmayənin ümumi məbləği isə 60 milyard dollar olacaqdır. Müqavilələrin şərtlərini təhlil edərkən görürük ki, ilk 3 layihədə Azərbaycanın payı 10 faizdən artıq deyil. Bunun əsas səbəbi xarici iş adamlarını həvəsləndirmək, ölkəyə cəlb etmək idi. Sonralar müqavilələrdəki pay bölgüsünddə Azərbaycanın iştirakı yüksələn faizlə davam etmişdir. Məsələn, yeddinci müqavilədən başlayaraq Azərbaycanın iştirak payı 50 faizdən az olmayıb. Əməkdaşlığın artmasında və günü-gündən genişlənməsində ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin diplomatik



sə`yləri və gərgin əməyi xüsusi qeyd olunmalıdır. Daha bir əlamətdar cəhət: 2000-ci ildən e`tibarən Azərbaycan neftdən gəlir götürməyə başlayacaqdır. Belə ki, gələn il ABƏŞ-in hasil edəcəyi 5,25 milyon ton neftdən 500 milyon dollar götürüləcəyi gözlənilir. Həmin vəsaitin təqribən 100 milyon dolları isə (göstərilən rəqəmlər dünya neft bazarındakı konyukturdan və qiymət faktorundan asılı olaraq dəyişə bilər) ölkəmizə çatacaqdır. Zati-aliləri Heydər Əliyevin yeritdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkədəki sabitliyin möhkəmliyinə, Xəzərdəki karbohidrogen ehtiyatlarının kifayət qədər olduğuna inanan xarici partnyorlarımız bizimlə daha həvəslə işləməyə başlayıblar.

Əminik ki, Azərbaycan zəngin təbii sərvətləri ilə Dünya Birliyinə sür`ətlə inteqrasiya edəcək, iqtisadi cəhətcə inkişaf etmiş qabaqcıl dövlətlərdən birinə çevriləcəkdir. Doğrudur, bu sahədə müəyyən maneə və çətinliklər də mövcuddur. Ölkəmizin zorla cəlb edildiyi dağıdıcı müharibə, ərazimizin 20 faizinin işğal altında qalması, bir milyondan çox qaçqınlar ordusunun yaranması iqtisadiyyatımızın sür`ətlə yüksəlməsində böyük əngəllər törədir. ABŞ Konqresi tərəfindən ölkəmizə birbaşa yardıma qadağa qoyan "Azadlığı müdafiə aktı"na edilən 907-ci ədalətsiz düzəliş də bu qəbildəndir.

Bə`zən ölkə daxilində iş adamlarına əsassız çətinliklər yaradılması faktları da vardır. Bu barədə zati-aliləri Heydər Əliyev demişdir: "...Təəssüflər olsun ki, bizim adamların bə`ziləri mə`nəviyyatca çox

korlanıblar. Onlar Azərbaycanın mənafeyini güdmür, bə`ziləri öz mənafeyini güdür. Ona görə də xarici investor gələndə, onun qabağına öz mənafeyi üçün elə şərtlər qoyur ki, o da görür ki, şübhəsiz, bu şərtlə burada iş görə, gəlir götürə bilməz və çıxıb gedir. Belə hallar da var. Artıq bu da mənə gəlib çatıbdır. Mən bunlarla ciddi məşğul olacağam. Biz bunları, nöqsanları da aradan qaldıracağıq. Azərbaycan sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedir və gedəcəkdir".

Azərbaycan xalqı sabaha inanır. İnanır ki, torpaqları düşmən əsarətindən azad ediləcək, ərazi bütövlüyü bərpa olunacaq, təkcə Azərbaycanda yox, bütünlüklə Qafqazda möhkəm və dönməz sülh, sabitlik yaranacaqdır. Azərbaycan və Qafqaz dünya dövlətləri üçün normal iqtisadi əməkdaşlıq bölgəsinə, dünyanın ən böyük yanacaq mərkəzlərindən birinə çevriləcəkdir. Çünki Azərbaycanın Heydər Əliyev kimi müdrik və uzaqgörən rəhbəri, nüfuzlu və qüdrətli prezidenti vardır!



## XALQIN ÜMİDİ VƏ PƏNAHI, MÜSTƏQİLLİYİMİZİN DAYAĞI

***"Arzum budur ki, azərbaycanlılar harada olurlarsa-olsunlar, onlarda milli hiss daha da çox oyansın. Sizin də, bizim hamımızın da borcu ondan ibarətdir ki, Azərbaycandan kənarda yaşayan azərbaycanlıların milli hissiyyatlarını oyadaq. Nəinki təkcə oyadaq ki, onlar yuxudan oyansınlar, həm də onlar güclənsinlər. Bu millilik bizi birliyə gətirir, yaxınlaşdırır. Bu millilik dövlətimizin əsasını yaradıbdır".***

**Heydər ƏLİYEV**

Təkcə Azərbaycan neft sənayesinin əsl yüksəlişi, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması deyil, neft e`malı sahəsinin intibahı və onun istehsal gücünün əsaslı şəkildə artırılması da zati-aliləri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Bunu "Azərneftyağ" İstehsalat Birliyinin tarixi, Azərbaycana rəhbərlik etdiyi otuz il müddətində Heydər Əliyevin müəssisəmizə və onun kollektivinə göstərdiyi qayğı və diqqət bir daha təsdiq edir.

"Azərneftyağ" İstehsalat Birliyi respublikanın qədim və nəhəng neftayırma və neft-kimya sənayesi müəssisələrindəndir. 1884-cü ildə "Rus-Qafqaz səhmdarları cəmiyyəti" tərəfindən yaradılan bu zavod Sovet hakimiyyəti dövründə milliləşdirilmiş, İkinci Dünya müharibəsi dövründə isə gecə-gündüz cəbhə üçün işləmişdir. Buraxılan məhsulların keyfiyyətinin

və çeşidinin artırılmasında Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı sayəsində müəssisədə ən yeni texnologiyaya və yüksək məhsuldarlığa malik "ELOU-AVT-6", "Petrofak" (305 saylı qurğu) və "Laki İnjinirinq" (202 saylı qurğu) şirkətləri tərəfindən inşa olunan qurğuların istismara buraxılmasının böyük əhəmiyyəti olmuşdur. Zati-aliləri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə dörd dəfə müəssisəmizə gəlmişdir. Onunla hər görüş kollektiv üçün böyük bayrama çevrilmiş, yeni tikilən bir qurğunun işə salınması ilə əlamətdar olmuşdur. Hazırda birliyimizdə fəaliyyət göstərən Heydər Əliyev "Fəxri guşəsi"ndə bu dahi şəxsiyyətin müəssisəmizin, habelə Azərbaycan neft sənayesinin inkişafındakı misilsiz xidmətindən bəhs edən maraqlı və tarixi foto-şəkillər, başqa eksponatlar vardır. Zati-aliləri Heydər Əliyevin birliyimizə sonuncu — 7 fevral 1995-ci ildəki gəlişi də əlamətdar hadisə, Cənubi Koreyanın "Laki İnjinirinq" Şirkəti ilə bağlanmış müqavilə əsasında tikilmiş yeni "ELOU-AVT-2" qurğusunun istifadəyə verilməsi münasibətilə idi. Dəyəri 25 mln. ABŞ dollarından yüksək olan bu qurğuda neftdən yüngül fraksiyalar ayrılır və keyfiyyəti dünya standartlarına uyğun gələn yağlar istehsal ediləcəkdir. Fərəhlidir ki, qurğunun inşasında respublikanın "AzQUR" Səhmdar Şirkəti, digər tikinti-quraşdırma idarələri, habelə birliyimizin kollektivi də yaxından iştirak etmişdir. Qurğunun yaranmasında və istismara verilməsində zəhməti olanların hamısına təşəkkürünü bildirən zati-aliləri Heydər Əliyev Bakıda neft e`malı sahəsində belə bir



qurğunun işə salınmasını yüksək qiymətləndirdi. Müəssisəmizə əvvəlki gəlişini xatırlayan cənab Heydər Əliyev dedi: "Xatirimdədir, indi olduğumuz bu yer vaxtilə XXII partiya qurultayı adına neftayırma zavodu idi. Biz Xəzər dənizinin sahilindəyik. Mən buraya dəfələrlə gəlmişdim. Burada torpaq da, hava da qara idi. Dənizin sahilinə gedəndə suyun üzərində böyük bir qara örtük görünürdü. Bunlar hamısı o köhnə qurğuların havaya buraxdığı çirkli, zəhərli maddələrin nəticəsi idi. Biz bunların hamısını dağıtdıq. O vaxt bu yerdə həmin dövrə görə yeni texnologiyalı "ELOU-AVT-6" qurğusu quruldu. İndi buraya toplaşanların bir çoxu o zaman orada işləyirdi. Həmin qurğunun yaranmasında, inşasında iştirak edirdi. O qurğunun 1981-ci ildə tikilib başa çatdırılması, istismara verilməsi Azərbaycanın həyatında mühüm hadisə oldu. Bəli, altı milyon ton və ondan da çox neft məhsulları istehsal edə bilən yeni bir zavodun istismara verilməsi böyük bir hadisə idi. O vaxt da biz bura toplaşmışdıq, sevinirdik, bir-birimizi təbrik edirdik.

O vaxtdan on beş il keçib. Mən bu gün böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, o zaman əsası qoyulmuş bu mükəmməl, böyük zavod indiyədək işləyir, fəaliyyət göstərir. Azərbaycanın iqtisadiyyatında böyük rol oynayır, xalqımızın iqtisadi həyatında öz görkəmli yerini tutubdur. Mən o vaxtdan burada işləyənlərin hamısına xüsusi minnətdaram. Ona görə ki, bu zavodu qoruyublar, saxlayıblar, dağıtmağa qoymayıblar və bu müəssisədən həm Azərbaycan

Respublikası, həm xalqımız, həm də zavodun kollektivi üçün səmərəli istifadə ediblər".

Neftçilərin, neftayırma zavodlarında çalışan mühəndislərin, texniklərin, mütəxəssislərin, fəhlələrin Azərbaycan neftçilərinin ən`ənələrinə sadiq qaldıqlarını yüksək dəyərləndirən zati-aliləri Heydər Əliyev qeyd etdi ki, Xəzərdə çıxarılan neftin bir hissəsi xarici şirkətlər tərəfindən xaricə nəql ediləcəkdir. Amma bir hissəsi Azərbaycanın özündə qalacaqdır və onun dünya standartlarına müvafiq yüksək səviyyədə e`mal olunması və bu neftdən dünya standartlarına uyğun məhsullar alınması bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ona görə də bu qurğunun yaradılması həmin iş üçün yol açır. Söz yox ki, biz bundan sonra da neftin e`malı üçün yeni istehsal qurğuları yaratmalıyıq. Lakin bu qurğu imzaladığımız müqavilə nəticəsində istehsal ediləcək neftdən yüksək keyfiyyətli məhsullar almaq üçün çox böyük əsas yaradır.

Keçid dövrünün çətinliklərini göstərən Heydər Əliyev hərənin öz sahəsindəki imkanlardan bacarıqla istifadə edəcəyi təqdirdə bə`zi problemlərin həllinin mümkünlüyünü xatırladaraq dedi: "...Azərbaycan xalqının imkanları böyükdür. Azərbaycan Respublikasının imkanları genişdir. Məqsədimiz və vəzifəmiz də ondan ibarət olmalıdır ki, bu imkanlardan səmərəli istifadə edək". Zati-aliləri Heydər Əliyevin tövsiyə və göstərişlərini rəhbər tutan kollektivimiz qarşıya qoyulan vəzifələri müvəffəqiyyətlə həyata keçirmək üçün birliyin daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə edir, möhtərəm



prezidentimizin diqqət və qayğısına əməli işlə cavab verir.

Respublikanın yanacaq və sürtkü yağlarına tələbatının ödənilməsinə çalışan müəssisəmizin kollektivi artıq 1993-1996-cı illərdə yaranmış ciddi geriliyi aradan qaldırmışdır. 1997-ci ilin ikinci yarısından başlanan dönüş nəticəsində iqtisadi göstəricilər əsaslı surətdə yaxşılaşmışdır. Belə ki, 1997-ci ilin birinci yarısının ziyanla başa çatmasına baxmayaraq, ilin ikinci yarısında bu ziyan tam bağlanılmış, bütövlükdə il ərzində 28,5 mlrd. manat mənfəət götürülmüşdür. 1998-ci ildə müvəffəqiyyətlər daha da artırılmışdır. Neftin qəbulu və e`malı planı artıqlamasilə yerinə yetirilmiş, il 132 mlrd. manat xalis gəlirlə başa vurulmuşdur. 1999-cu ilin birinci yarısı da uğurlu olmuş, 42 mlrd. manat mənfəət əldə edilmişdir.

Müəssisəmizin neft e`malı üzrə illik istehsal gücü 14,5 mln. tondur. Lakin bu istehsal gücündən tam istifadə olunmur, cəmi 4-4,5 mln. ton xammal e`mal edilir. Zati-aliləri Heydər Əliyevin yaxından köməyi sayəsində son illər müəssisəmizdə bir neçə "ELOU-AVT" tipli neftin ilkin e`malı qurğuları tikilmiş və sürtkü yağları üçün lazım olan qısa fraksiyaların alınmasına imkan yaranmışdır. Lakin selektiv təmizləmə, parafinsizləşdirmə, asfaltsızlaşdırma və hidrotəmizləmə qurğuları mə`nəvi cəhətdən köhnəldiyindən dünya standartlarına uyğun yağların alınmasına imkan yoxdur. Bu baxımdan yağ istehsalı proseslərinin yenidən qurulması və modernləşdirilməsi qarşıda duran mühüm problemlərdəndir. Problemin

həlli üçün Dövlət Neft Şirkətinin razılığı ilə dünyanın bir neçə nəhəng neft şirkətləri - "Mobil", "Şevron" (ABŞ), "Solvaldub" (İngiltərə), "Manisman" (Almaniya), "Niçmen Korporeyşn" (Yaponiya), "Karovopolska" (Çexiya) və s. müəssisəmizə də`vət edilmiş, məsləhətləşmələr aparılmış, həmin şirkətlər görüləcək yenidənqurma və modernləşdirmə işlərinin marketinqini öz üzərlərinə götürmüşlər. Bu o deməkdir ki, gələcəkdə tikintisi başa çatacaq yağ bloklarında elə yağlar istehsal ediləcəkdir ki, onlar beynəlxalq standartlara uyğun gəlməklə dünya bazarında rəqabətə davam gətirsin və əldə olunan mənfəətdən tikintiyə qoyulan sərmayə qaytarılsın. Müəssisəmizdəki yenidənqurma və modernləşdirilmə işlərinə suyun kimyəvi təmizlənməsi, habelə yeni enerji blokunun tikilməsi də aiddir.

"Azərneftyağ" İstehsalat Birliyində həlli vacib problemlərdən biri də dünya standartlarına cavab verən yeni bitum qurğusunun tikintisidir. Layihə üzrə bu qurğuda istehsal olunacaq 250 min ton bitumdan 200 min tonu yol bitumu, 50 min tonu isə inşaat bitumu olacaqdır. Qurğunun əsas hissəsi tikilmiş, qablaşdırma hissəsinin inşası isə davam edir və ilin sonunda tam istismara veriləcəkdir. Hazırda neft e`malı üzrə elmi-tədqiqat və layihə institutları ilə birlikdə müəssisəmizin perspektiv inkişaf planı hazırlanır. Birliyin yenidən qurulması üzrə hazırlanan texnologiyalar müvafiq qaydalar əsasında Dövlət Neft Şirkətinin "Tender" komissiyasında baxıldıqdan sonra müqavilələrin imzalanması həyata keçiriləcəkdir.



18 avqust 1999-cu ildə zati-aliləri Heydər Əliyevin qayğısı və əməli fəaliyyəti sayəsində müəssisəmiz qarşısında duran problemlərdən bir qisminin həlli yönümündə konkret addım atılmışdır. Belə ki, ARDNŞ-in prezidenti Natiq Əliyev və ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin direktoru Cozef Qrandmeyson tərəfindən "Azərneftyağ" İstehsalat Birliyində dizel və reaktiv yanacaqların qələvi ilə təmizlənməsi, eləcə də distillə olunmuş neft turşularının alınması proseslərinin "Fiber-film" texnologiyası əsasında yenidən qurulması ilə əlaqədar texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün qrant ayrılması haqqında saziş imzalanmışdır. Heydər Əliyevin iştirakı ilə keçirilən imzalanma mərasimi yeni neft strategiyasının uğurlu fəaliyyətinin daha bir təsdiqinə çevrildi.

Zati-aliləri Heydər Əliyevin bizə daimi tövsiyə və tapşırıqlarından biri də məcburi köçkünlərə və qaçqınlara maddi və mə`nəvi yardım göstərmək, əməkçilərin sosial-məişət şəraitini yaxşılaşdırmaqdır. Bu sahədə də müəssisəmizdə ardıcıl və məqsədyönlü iş aparılır. Hazırda "Azərneftyağ" İstehsalat Birliyinə məxsus "Dalğa" pansionatı, "Ümid" sağlamlıq mərkəzi, "Lalə" məktəbli düşərgəsi və digər ictimai binalarda 100-dək qaçqın ailəsi məskunlaşmışdır. Onların bütün problemləri ilə birliyimizin müvafiq şö`bələri, sahələrin rəhbərləri gündəlik məşğul olurlar. Hər ay qaçqınların ehtiyaclarının ödənilməsinə 27 milyon manat pul vəsaiti xərclənir.

Fəhlə və qulluqçuların mənzil şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzindədir. Elə bu ilin

yanvar ayında 7 mərtəbəli, 63 mənzilli yaşayış binası əməkçilərimizin ixtiyarına verilmişdir. Daha 203 mənzilli 3 yeni binanın inşası başa çatmaq üzrədir. 2000-ci ilin sonuna kimi işçilərimizin mənzilə olan ehtiyacının 75 faizi ödəniləcəkdir. Maliyyə imkanlarından asılı olaraq mənzil tikintisi sonrakı illərdə də davam etdiriləcəkdir.

Bu gün Azərbaycan özünün ən çətin və mürəkkəb dövrünü yaşayır. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı apardığı və ərazisinin 20 faizinin işğalı ilə nəticələnən ədalətsiz müharibə, digər tərəfdən keçid dövrünün ağırlıqları ölkə iqtisadiyyatını pozmuş, xalqın güzəranını ağırlaşdırmışdır. Lakin heç kəs sabaha olan ümidini itirmir. Əksinə, Azərbaycan neftçiləri, bütün xalqımız Heydər Əliyevə, onun yeritdiyi müdrik daxili və xarici siyasətə, müstəqil Azərbaycanın yeni neft strategiyasına ürəkdən inanır. Bu strategiyanın uğurla nəticələnəcəyinə, ölkəmizin Dünya Birliyinin bərabərhüquqlu üzvünə, xoşbəxt və firavan günlərə qovuşacağına zərrə qədər də şübhə yoxdur. Zati-aliləri Heydər Əliyev xaricdə müalicə olunduğu günlərdə ona tükənməz el məhəbbətinin, ümumxalq sevgisinin bir daha şahidi olduq. Gülhanədəki Tibb Akademiyasına, Klivlend klinikasına ünvanlanan sevgi dolu məktub və teleqramların ardı-arası kəsilmirdi. Hamı möhtərəm prezidentimizin tezliklə sağalıb Azərbaycan rəhbərliyinin sükanı arxasına qayıtmasını arzulayırdı. Müəssisəmizin kollektivi tərəfindən imzalanmış belə teleqramlardan birində deyilirdi: "...Sizin NATO-nun 50 illik yubileyində iştirak etmək üçün ABŞ-a yola düşməzdən əvvəl orada daha bir neçə tanınmış neft şirkətləri ilə müqavilə imzalayacağınızı bilirdik. Ağır cərrahiyyə əməliyyatı keçirməzdən əvvəl öz sağlamlığınızı unudaraq, xalqımızın rifahı üçün vacib olan həmin müqavilələri imzalamağınız biz neftayıranları, bütövlükdə Azərbaycanın hər bir vətəndaşını sevindirir, riqqətə gətirir. Bu, fədakarlıqdır, xalq yolunda böyük xidmətdir! Bütün bunlara görə Sizə ürəkdən minnətdar olduğumuzu bildirir, əmin edirik ki, yüksək qayğınıza, fədakarlığınıza əməli işimizlə, sonsuz məhəbbətimizlə cavab verəcəyik!"



Bu gün Azərbaycan xalqı dünyanın ən böyük siyasi xadimi, müdrik və uzaqgörən prezidenti Heydər Əliyevin rəhbərliyi altında sərbəst bazar iqtisadiyyatı yolu ilə irəliləyir. Birgə sə`ylə XXI əsrdə ölkə iqtisadiyyatının yüksəlişi üçün möhkəm təməl yaradılmışdır. Hamı əmindir ki, zati-aliləri Heydər Əliyev tərəfindən hazırlanan və ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin diplomatik məharəti ilə davam etdirilən müstəqil Azərbaycanın yeni neft strategiyası ölkəyə iqtisadi firavanlıq, böyük siyasi nüfuz və Dünya Birliyində hörmətli mövqe gətirəcəkdir.

**P.S. Bu kitabı görülən işlərin canlı şahidi kimi qəlbimin hökmü ilə yazmışam. Əlbəttə, müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının müəllifi Heydər Əliyevin və onun ən fəal icraçılarından biri olan İlham Əliyevin gördükləri işlərin həcmi və əzəməti o qədər böyükdür ki, hamısını bir kitabda əhatə etmək mümkün deyil.**

**Gələcəkdə bu mövzuda bir daha yazmaq arzusu qəlbimdədir.**

*İÇƏRİSİ*

Səh. **5**
**HEYDAR ALIYEV**
**AND NEW OIL STRATEGY**
**OF INDEPENDENT AZERBAIJAN**

Səh. **89**
**HEYDƏR ƏLİYEV**
**VƏ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN**
**YENİ NEFT STRATEGİYASI**

**Ramiz Şəmşəd oğlu Mirzəyev**

HEYDƏR ƏLİYEV
VƏ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN
YENİ NEFT STRATEGİYASI

(İngilis və Azərbaycan dillərində)

Yığılmağa verilmişdir 31.08.1999
Çapa imzalanmışdır 08.09.1999.
Ofset çapı. Həcmi 10 ç.v.
Təbaşirli kağız.
Sərbəst qiymət.

Bakı, 370004, İçərişəhər, Böyük Qala k., 41
"Göytürk" mətbəəsi

Bakı — 1999

А-32671



РАМИЗ МИРЗӘЈЕВ

# ҺЕЈДӘР ӘЛИЈЕВ ВӘ МҮСТӘГИЛ АЗӘРБАЈЧАН ДӨВЛӘТИНИН ЈЕНИ НЕФТ СТРАТЕКИЈАСЫ